Xalq qəzeti 15 mart 2025-ci il, şənbə S.15.

İstiqlal yolçuları

# Turan sevdalısı – türkçülüyün bayraqdarı

## *Əli bəy Hüseynzadənin öz amalı isə üçrəngli bayrağımızın məfkurə qaynağıdır*



**Böyük Turançı mütəfəkkir Əli bəy Hüseynzadənin həyatı və yaradıcılığı, həyata baxışları, siyasi taleyi ilə yaxından tanış olanda insanı heyrət və qürur hissləri bürüyür. Düşünürsən ki, nə yaxşı ki, XX əsrin əvvəllərində, dünyanın o çox qarışıq, taleyüklü dönəmində bütün türk xalqlarına tərəqqi və intibahın yolunu göstərən belə işıqlı, fədakar ziyalılar olub.**

Əli bəy Hüseynzadə XX əsr Azərbaycan ictimai-fəlsəfi fikir tarixinin görkəmli nümayəndəsidir. Ötən yüzilliyin əvvəllərində türkçülük məfkurəsinin intişar etməsində Əli bəy Hüseynzadənin danılmaz xidmətləri olmuşdur. O, Turan ideologiyasının həm də böyük carçısı idi. Əli bəy, eyni zamanda istedadlı bir ədib, alovlu publisist, fədakar maarifçi, gözəl rəssam və qayğıkeş təbib kimi də öz bilik və bacarığını xalqından əsirgəməmişdir.

Əli bəy hesab edirdi ki, azərbaycanlıların millət məfkurəsi türkləşmək, dini inancı islamlaşmaqdırsa, iqtisadi, mədəni, sosial-siyasi niyyəti avropalaşmaq (müasirləşmək) olmalıdır. Onun bu düsturu əqidə yoldaşları tərəfindən bəyənilmiş və təqdir edilmişdir. O yazırdı: “Türk xalqları birinci dövrdə qılıncla (Hun imperatorluğu dövrü nəzərdə tutulur - red), ikinci dövrdə dinlə (Osmanlı imperatorluğu dövrü) parlamışdılarsa, indi isə, yəni üçüncü dövrdə (XX əsrdə) elm və biliklə parlamalıdırlar...” Əli bəyin fikrincə, təhsilsiz millət kor kimidir. Türk xalqlarının əl-ələ verərək, birlik və həmrəy olaraq özlərinin azad, parlaq gələcəklərini qurmalıdırlar.

Acı təəssüf ki, sovet rejimi dönəmində bu böyük insan haqqında böhtan və iftiralara geniş meydan verilmişdi, adına cürbəcür “yarlıqlar” (“burjua millətçisi”, “pantürkist” və s.) yapışdırılmışdı, doğmaları “qırmızı terrora” məruz qalmışdılar, əsərlərinin nəşrinə qadağalar qoyulmuşdu... Lakin sovet rejiminin bütün basqı və qadağalarına rəğmən, Əli bəy Hüseynzadənin böyük adını və əməllərini xalqın yaddaşından silmək, tarixin səhifələrindən çıxarmaq mümkün olmamışdı.

Əli bəy Hüseyn bəy oğlu Hüseynzadə 1864-cü il fevralın 24-də Salyanda ruhani müəllim ailəsində doğulub. İbtidai təhsilini atası Molla Hüseynin də müəllim işlədiyi Tiflis Müsəlman Məktəbində alıb. Çox erkən yaşlarında valideynlərini itirən Əli bəy ana babası - böyük maarifpərvər, müasirləri tərəfindən “Qafqazın birinci adamı” adlandırılan Qafqaz Şeyxülislamı Axund Əhməd Səlyaninin (1812-1884) himayəsində qalıb. Babasının Əli bəyin güclü və ləyaqətli şəxsiyyət kimi yetişməsində müstəsna rolu olub.

Altısinifli müsəlman məktəbini uğurla başa vuran Əli bəy babası Axund Əhmədin tövsiyəsi və Ziya Göyalpın “Rusiyada iki böyük türkçüdən biri” adlandırdığı Mirzə Fətəli Axundzadənin (1812-1978) köməyi ilə 1875-1885-ci illərdə Tiflis şəhər 1-ci kişi gimnaziyasında mükəmməl tam orta təhsil alıb. 1885-ci ildə Sankt-Peterburq Universitetinin fizika –- riyaziyyat fakültəsinə daxil olmuş, oranı 1889-cu ildə fərqlənmə diplomu ilə bitirmişdi.

Əli bəy Sankt-Peterburqda yüksək universitet təhsili alsa da, bununla kifayətlənməmiş, Türkiyəyə gedərək İstanbul Universitetinin əsgəri-tibb fakültəsində (1890–1895) ali tibb təhsilinə də yiyələnmişdi. Əvvəllər bir müddət həkim – dermatoloq, sonralar isə İstanbul Universitetində professor köməkçisi işləyən Əli bəy siyasi fəaliyyətə qoşulur və “Gənc türklər”lə yaxınlaşır. Sultan II Əbdülhəmid bu səbəbdən onun həbsi barədə qərar verir. Əli bəy 1903-cü ildə köhnə tanışı olan bir hindli tacirin gəmisində gizli şəkildə Hindistana, oradan Çinə, nəhayət, Bakıya gəlib çıxır...

Bakı dövrü (1903-1910) Əli bəy Hüseynzadənin həyatında yeni mərhələnin başlanğıcı olur. Rusiyadan kənarda təhsil aldığı üçün Bakıda həkimlik işinə qəbul edilməyən Əli bəy publisistik fəaliyyətlə məşğul olmağa başlayır. Bu illərdə Bakıda yaşayıb – yaradan Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev kimi tanınmış ziyalılarla sıx təmaslar qurur. 1905-ci ildə çox böyük çətinliklə ana dilində “Həyat” qəzetinin nəşrinə razılıq verilir...

Bu mətbu nəşrin sahibi məşhur mesanat Hacı Zeynalabdin Tağıyev, naşiri Əlimərdan bəy Topçubaşov, redaktorları Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayev idilər. Azərbaycanın bu üç böyük fikir nəhəngi və söz adamlarının fəal iştirakı ilə nəşrə başlayan “Həyat” qəzeti ölkəmizdə o dövrdə milli ruhun yüksəlməsi və xalqın özünü dərk etməsi naminə zülmətləri yaran, beyinlərə ziya, işıq bəxş edən bir məşəl olmuşdur.

Əli bəy Hüseynzadə “Həyat” qəzetinin səhifələrində çap etdirdiyi “Türklər kimdir və kimlərdən ibarətdir?" adlı əsəri ilə türk xalqlarına, o cümlədən Azərbaycan türklərinə üz tutaraq “Biz tatar deyilik, biz türkük”, - deyə hayqırmışdı, xalqa öz adı ilə “türk” demişdi və bunu başqalarına da dedirtmişdi, türklərin kimliyini onlara anlatmışdı. Bu mənada Azərbaycanda türkçülük hərəkatının həqiqi tarixi məhz Əli bəyin redaktoru olduğu “Həyat” qəzeti ilə başlayır.

Təsadüfi deyil ki, polyak mənşəli görkəmli Amerika tarixçisi Tadeuş Svyatoxovski doğru olaraq, “XX əsrin əvvəllərində türk xalqlarına kimliyini bildirən bir nəfər var idi. O da Əli bəy Hüseynzadə idi!”, - deyirdi. Qeyd edək ki, T.Svyatoxovski Azərbaycanın milli istiqlal tarixini ən dərindən, obyektiv və qərəzsiz tədqiq etmiş dünya şöhrətli tarixçi alimlərdəndir.

“Həyat” qəzeti bağlanandan sonra çox keçmədi ki, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı və Əli bəy Hüseynzadənin redaktorluğu ilə “Füyuzat” dərgisi (1906-1907) işıq üzü görməyə başladı. Əli bəy “Həyat”da həyata keçirməyə çalışdığı türkçülük ideyalarını “Füyuzat”da da davam etdirərək, türkçülüyün siyasi proqramı olan “türkləşmək, islamlaşmaq, avropalaşmaq” formulunu bitkin bir sistem halına gətirdi. Azərbaycan ədəbiyyatında yeni bir istiqamət – “Füyuzat” ədəbi məktəbi (Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və başqalarının təmsil olunduğu romantik ədəbiyyat) yarandı. Lakin “Həyat” kimi, “Füyuzat”ın da ömrü qısa oldu və qəfildən bağlandı...

...Türkiyədə Sultan II Əbdülhəmid taxtdan salınmışdı. Əli bəy 1910-cu ilin sonunda sabiq inqilabçı dostlarının dəvətini qəbul edərək yenidən Türkiyəyə köçmək qərarına gəlir. Çox maraqlıdır ki, bu dahi fikir adamının Bakıdan getməsi xəbəri o dövrün tanınmış ziyalıları tərəfindən milli faciə kimi qarşılanmışdı. Məsələn, istedadlı şair Ələbbas Müznib görkəmli fikir və söz adamı Əli bəyi “Qafqaz müsəlmanlarının atası” adlandırır, onu “dilsizlərin dili, karların qulağı, korların görən gözü” hesab edir, onun Bakıdan gedişi ilə “Qafqaz əhalisinin başsız, böyüksüz qalacağını” ürəkağrısı ilə dilə gətirirdi.

1918-ci il mayın 28-də Tiflisdə qurulan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müvəqqəti olaraq Gəncədə fəaliyyət göstərdiyi dövrdə (16 iyun 1918 – 17 sentyabr 1918) Osmanlı dövlətindən hərbi yardım istəmiş və Nuru Paşanın rəhbərliyi altında türk ordusu Azərbaycana – Gəncəyə gəlmişdi. Bu dövrdə Əhməd bəy Ağayev (Ağaoğlu), Axund Yusif Talıbzadə ilə yanaşı, Əli bəy Hüseynzadə də Türkiyədən Azərbaycana göndərilmiş, dövlət quruculuğu məsələlərini Azərbaycanın siyasi və hökümət rəhbərləri ilə müzakirə etmiş və məsləhətlərini vermişdi.

Əli bəy Hüseynzadə Azərbaycanda xüsusi dəvət ilə bir də 1926-cı ildə Bakıda keçirilən I Beynəlxalq Türkoloji qurultayda iştirak etmək üçün Vətənə dönüb, qurultaya məruzə adı ilə gətirdiyi, əslində isə Xalq Cümhuriyyətinin süqutu və Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalı məsələlərinə həsr olunmuş “Qərbin iki dastanında türk” əsərinin Bakıda nəşrinə nail olub. Türkoloji qurultay başa çatdıqdan sonra Əli bəy 1926-cı il martın 25-də Vətəndən sonuncu dəfə ayrılmalı olmuşdur.

Əli bəy Hüseynzadə İstanbul Universitetinin Tibb fakültəsində əvvəlcə dəri-zöhrəvi xəstəlikləri üzrə professor köməkçisi, sonralar professoru olmuş, 1933-cü ilə qədər bu vəzifədə çalışaraq daha çox pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bu böyük millət aşiqi 1940-cı il martın 17-də İstanbulda dünyasını dəyişib və şəhərin Qaracaəhməd məzarlığında torpağa tapşırılıb...

Əli bəy Hüseynzadə, həqiqətən, XIX əsrin sonu - XX əsrin əvvəllərində türk-islam dünyasının yetirdiyi nadir şəxsiyyət, dahi mütəfəkkir, bənzərsiz fikir adamı, böyük maarifçi və ictimai xadim idi. Onun haqq dünyasına qovuşmasından 85 il ötsə də, o, əsərlərində, əməllərində, parlaq ideyalarında bu gün də yaşayır. Doğulduğu Salyan şəhərində şərəfinə heykəli ucaldılıb, küçələrə, məktəblərə adı verilib. Əsərləri çap edilib, haqqında araşdırmalar aparılıb.

“Dilimin ucundadır həqiqətin böyüyü” deyən Əli bəy Hüseynzadəni xalqımız və bütün türk dünyası heç vaxt unutmayıb və unuda da bilməz. Nə qədər ki, müstəqil Azərbaycanın üçrəngli bayrağı var, həmin bayrağın rənglər rəmzlərinin müəllifi Əli bəy Hüseynzadə də var olacaqdır...

***Məsaim ABDULLAYEV***
***XQ***